# MİKROSAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ VERGİ

2018-ci ilin dekabr ayının 21-də Azərbaycan Respublikasının Nazirlər Kabineti 556 saylı qərarı ilə sahibkarlıq subyektlərinin bölgüsü meyarlarını təsdiq edib. Əvvəlki bölgü meyarından fərqli olaraq hazırda sahibkarlıq subyektləri dörd kateqoriyaya (mikro, kiçik, orta və iri) bölünür. Bu ildən həmin bölgüyə mikro sahibkarlıq subyekti anlayışı da daxil edilmişdir.

Təsdiq edilən yeni «Meyarlara» əsasən illik gəlirin həcmi 200.000 manatdan az və işçilərin illik orta siyahı sayı 10 nəfərə kimi olan hüquqi şəxs və ya fərdi sahibkar mikro sahibkarlıq subyektinə aid edilir.

İllik gəlirə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aid edilir.

İşçilərin illik orta siyahı sayı hesabat ilinin bütün ayları üzrə işçilərin aylıq orta siyahı saylarını cəmləyib 12-yə bölmək yolu ilə müəyyənləşdirilir. Bu zaman işçilərin aylıq orta siyahı sayı təqvim ayının hər bir günü (bayram və istirahət günləri də daxil olmaqla) üzrə işçilərin siyahı saylarını toplayıb həmin aydakı günlərin sayına bölməklə müəyyənləşdirilir.

Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır. Yəni, əgər 2018-ci ilin yekunlarına görə vergi ödəyicisi mikrosahibkarlıq subyektinə aid edilmişsə, onda 2019-cu ildə həmin vegi ödəyicisinin müvafiq göstəricilərinin dinamikasından asılı olmayaraq o, ilin sonuna kimi mikrosahibkarlıq subyekti kimi qalacaqdır.

Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Yəni, 2019-cu ildə mikrosahibkarlıq subyekti sayılmaq üçün 2018-ci ildə vergi ödəyicisinin illik gəliri 200.000 manatdan aşağı, işçilainin orta illik siyahı sayı isə 10 nəfərdən az olmalıdır. Əgər bu göstəricilərdən biri qeyd olunan limiti aşsa, onda vergi ödəyicisi növbəti ildə mikrosahibkarlıq subyekti hesab edilməyəcəkdir.

### Hansı mikrosahibkarlıq subyekti sadələşdirilmiş vergcinin ödəyicisi ola bilər?

Bu başdan qeyd edək ki, biz bu materialda öz fəaliyyət növünə görə mütləq sadələşdirilmiş vergi ödəyicisi olan şəxsləri (mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər və s.) nəzərdən keçirməyəcəyik.

Vergi Məcəlləsinin 218.1.1-ci maddəsinə əsasən ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdir. Göründüyü kimi, burada da limit 200.000 manat müəyyənləşdirilmişdir. Lakin mikrosahibkarlıq subyekti ilə sadələşdirilmiş vergi ödəyicisi arasında birbaşa asılılıq yoxdur. Mikrosahibkarlıq subyektinin statusu ötən ilin yekunlarına görə müəyyənləşdirilir və növbəti il ərzində bu status dəyişməz qalır. Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ isə ardıcıl 12 aylıq





dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi ilə müəyyənləşdirilir. Məsələn, 2018-ci ilin yekunlarına görə müəssisə mikrosahibkarlıq statusu əldə edə və 2019-cu il ərzində belə statusda qala bilər. Lakin əgər 2019-cu ilin hər hansı bir ayında ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manatı aşsa, həmin şəxs sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirəcəkdir.

Məlum olduğu kimi, Vergi Məgəlləsinə 2019-cu il yanvarın 1-dən edilmiş dəyişikliklərlə bir çox mikrosahibkarlıq subyektləri sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirmişlər.

Belə ki, 1 yanvar 2019-cu il tarixindən aşağıdakı şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilməzlər.

- işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslər;
- topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər;
- vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (bu Məcəllənin 218.4-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən xidmətlərin göstərilməsi istisna olmaqla);
- qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslər;
- xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslər;
- bina tikintisi fəaliyyəti ilə məşğul olan və icbari sığorta müqavilələri üzrə xidmət göstərən şəxslər istisna olmaqla, lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslər.

Göründüyü kimi, bir çox mikrosahibkarlıq subyektləri 2019-cu il yanvarın 1-dən sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirirlər. Belə ki, topdansatış qaydasında mal təqdim edən bütün şəxslər, hüquqi şəxslərə xidmət göstərən şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilməzlər. Burada qanun heç bir limit müəyyənləşdirmir. Şərt belə qoyulur: əgər sadələşdirilmiş vergi ödəyicisi olmaq istəyirsənsə, onda topdansatış qaydasındla (qaimə ilə) bir mal belə sata bilməzsən və ya hüquqi şəxslə xidmət göstərilməsi barədə bir münavilə belə bağlaya bilməzsən.

Başqa sözlə desək:

- ticarət sahəsində yalnız bilavasitə əhaliyə pərakəndə satış qaydasında mal satan şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilər;
- xidmət sahəsində yalnız bilavasitə əhaliyə xidmət göstərən şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilər;
- istehsalat sahəsində yalnız işçilərinin sayı 10 nəfərdən artıq olmayan şəxslər sadələşdirilmiş vergi ödəyicisi ola bilər.

### Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirmiş vergi ödəyicisi hansı vergiləri ödəməlidir?

Bəziləri səhv olaraq belə hesab edir ki, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirmiş mikrosahibkarlıq subyekti mütləq ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməlidir. Bu belə deyildir. Vergi Məcəllısinin 155.1-ci maddəsinə əsasən Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş

hüquqdan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cümaddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Əgər mikrosahibkarlıq subyektinin ƏDV-yə cəlb oluna biləcək dövriyyəsi qeyd olunan limiti keçmirsə, həmin şəxs ƏDV ödəyicisi olmağa borclu deyildir (sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirsə belə). Sadəcə olaraq bu halda mikrosahibkarlıq subyekti mənfəət vergisinin (hüquqi şəxsdirsə) və ya gəlir vergisinin (fiziki şəxsdirsə) ödəyicisi olacaqdır.

Əgər şəxs mikrosahibkarlıq subyektidirsə və sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirmişsə, bu zaman həmin şəxsə vergi tutulan mənfəətinin (hüquqi şəxsdirsə) və ya vergi tutulan gəlirinin (fiziki şəxsdirsə) 75 faizi miqdarında güzəşt verilir. Yəni, vergi qalan 25 faiz mənfəətdən (vergi tutulan gəlirdən) hesablanır.